# İLHAM HEYDƏR OĞLU ƏLIYEV

24 dekabr 1961-ci ildə Bakı şəhərində görkəmli dövlət və ictimai xadim Heydər Əliyevin ailəsində anadan olmuşdur.

1967-1977-ci illərdə Bakı şəhərində 6 saylı orta məktəbdə təhsil almışdır.

1977-1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) təhsil almışdır. MDBMİ-ni bitirdikdən sonra, 1982-ci ildə həmin institutun aspiranturasına daxil olmuşdur.

1985-ci ildə "İndiki zamanda Böyük Britaniyada müharibə əleyhinə hərəkat və siyasi partiyaların ona münasibəti" mövzusunda dissertasiya müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsini almışdır.



1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləmişdir.

3 iyul 1985-ci ildə qızı Leyla Əliyeva anadan olmuşdur.

23 yanvar 1988-ci ildə qızı Arzu Əliyeva anadan olmuşdur.

1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmış və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

30 aprel 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti təyin edilmişdir.

12 noyabr 1995-ci ildə I çağırış Milli Məclisə keçirilən seçkilərdə 14 №-li Qaradağ seçki dairəsindən deputat seçilmişdir.

24 dekabr 1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə birinci vitse-prezidenti təyin edilmişdir.

31 iyul 1997-ci ildə Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidenti seçilmişdir.

3 avqust 1997-ci ildə oğlu Heydər Əliyev anadan olmuşdur.

21 dekabr 1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini seçilmişdir.

5 noyabr 2000-ci ildə II çağırış Milli Məclisə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasından proporsional qaydada deputat seçilmişdir.

25 yanvar 2001-ci ildə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikasının nümayəndə heyətinin rəhbəri seçilmişdir.

21 noyabr 2001-ci ildə Yeni Azərbaycan Partiyasının II qurultayında partiya sədrinin birinci müavini seçilmişdir.

27 yanvar 2003-cü ildə Avropa Şurası Parlament Assambleyasının iclasında Büro üzvü və Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti seçilmişdir.

4 avqust 2003-cü ildə Milli Məclisdə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin olunmuş. bununla əlaqədar deputat səlahiyyətlərinə xitam verilmişdir.

15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərində seçicilərin 76,8 faiz səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

15 oktyabr 2008-ci ildə keçirilən prezident seçkilərində seçicilərin 88,73 faiz səsini qazanaraq ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

9 oktyabr 2013-cü ildə keçirilən prezident seçkilərdə seçicilərin 84,54 faiz səsini qazanaraq üçüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

11 aprel 2018-ci ildə keçirilən növbədənkənar prezident seçkilərində seçicilərin 86,02 faiz səsini qazanaraq dördüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini bilir.

Evlidir. Üç övladı, beş nəvəsi var.